# “Qeyri-hökumət təşkilatları haqqında” Azərbaycan Respublikasının Qanununa edilmi. əlavə və dəyişikliklərlə bağlı ATƏT-in Bakı Ofisinin Rəhbərinin bəyanatı

BAKI, 17 iyun 2009 – ATƏT-in Bakı Ofisinin Rəhbəri, Səfir Bilge Cankorel bu gün aşağıdakı bəyanatı verib:

“Mənim Ofisim 19 iyun 2009-cu il tarixində “Qeyri-hökumət təşkilatları haqqında” Azərbaycan Respublikasının Qanununa əlavə və dəyişikliklərin qəbul edilməsi ehtimalından narahatlığını ifadə edir və bildirir ki, bu, ölkədə QHT-lərin fəaliyyətinə mənfi təsir edə və bununla da insanların birləşmə və fikri ifadə etmək azadlıqlarını məhdudlaşdıra bilər”.

“Beləliklə, biz hazırki mərhələdə adı çəkilən qanun layihəsinin Parlamentdə müzakirəsinin təxirə salınmasını məqsədəuyğun sayırıq. Çünki, təklif olunmuş əlavə və dəyişikliklər ATƏT-in öhdəlikləri və müvafiq beynəlxalq standartlara ziddir. Bundan əlavə, qeyd olunan qanunvericiliyin təsiri altına düşə biləcək tərəflərlə ictimai müzakirələrin keçirilməsi və müvafiq beynəlxalq ekspertlərlə məsləhətləşmələrin aparılmasının məqsədəuyğunluğuna inanırıq”.

“Əlavə və dəyişikliklərin ATƏT-in öhdəlikləri və müvafiq beynəlxalq standartlara cavab verməsini təmin etmək üçün, ehtiyac olarsa, ATƏT öz köməyini göstərməyə hazırdır”.